**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNNOVATİV TEXNOLOGİYALARIN ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİNİN PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ

**İxtisas:** 6104.01 - Pedaqoji psixologiya

**Elm sahəsi:** Psixologiya

**İddiaçı:** Sevda Feyzulla qızı Abdiyeva

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**B A K I – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial və Pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

**Rəsmi opponentlər:** psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

psixologiya üzrə fəlsəfə doktoru
**Ayna Abuş qızı Hümbətova**

psixologiya üzrə fəlsəfə doktoru
**Gülnur Oqtay qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: psixologiya üzrə fəlsəfə doktoru
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: psixologiya elmləri doktoru, professor
**Rəşid Vəkil oğlu Cabbarov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"05" 02 2024

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə səviyyəsi.** Müasir dövrdə insanların təhsil məkanında tutduğu mövqelər cəmiyyətin ümumi inkişaf xətti, qloballaşma proseslərinin tələbləri ilə tam uzlaşmalıdır. Burada ana xəttini innovativ inkişaf təşkil edir. Tərəqqi yolunu tutan bəşəriyyət öz mütərəqqi inkişafını təmin etmək üçün ilk növbədə təhsildə, yeni-yeni nəsillərin cəmiyyət həyatına hazırlığında daima yeniləşməli, real tələblərə və şəraitə uyğun hərəkət etməlidir. Bunun üçün müasir cəmiyyətin, ilk növbədə təhsil sisteminin inkişafının fəlsəfi-metodoloji əsasları dərindən öyrənilməli, insan fərdiyyətinin inkişafının sosial-psixoloji xüsusiyyətləri təyin edilməlidir. Yalnız bu zəmində daima yeniləşən təhsil prosesi təmin oluna bilər.

Azərbaycanda təhsil sistemində innovativ təhsilin həyata keçirilməsi üçün bir sıra mühüm addımlar atılmışdır. Məlumdur ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Buna görə də Azərbaycan Respublikası Prezidenti İ.Əliyev vurğulamışdır ki, “təhsil hər bir dövlətin gələcəyidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar[1].

Burada nəzərə alınmalı bir vacib məsələ də innovativ texnologiyaların şagird psixikasına təsirinin psixo-pedaqoji məsələləridir. Məlumdur ki, insan həyatının bütün mərhələlərində sosiallaşma prosesi davam edir. Bununla belə həyatın uşaq və gənc yaşlarında fərdi sübyektivlik özünəməxsus xarakter daşıyır. Müəllim-şagird münasibətlərinin düzgün və səmərəli qurulmasının şərtlərindən biri də müxtəlif innovativ yanaşmalar üzərində yaradılan proqram və layihələrin həyata keçirilməsidir.

---

[1] Bakıdakı 311 nömrəli orta məktəbin yeni binasının açılışında İlham Əliyevin nitqi // https://president.az/articles/21084/print

Azərbaycanda ildən ilə təhsildə, peşəkar pedaqoji kollektivlərin idarəolunmasında yeni qaydalar və normalar aşınalır, təşkilati mədəniyyət normaları təmin olunur. Bununla belə yerlərdə innovativ təlimlə bağlı təhsilə dəstək hələ kifayət qədər deyil. Yerli idarəetmə orqanları innovativ təhsilin tələblərinə uyğun elmi layihələri və proqramları demək olar ki, az həyata keçirir. Bundan başqa məktəblərdə də innovativ texnologiyalar kompleksi tam şəkildə tərtib olunmur, burada nəzarət, əldə edilən nəticələr, müəllim və şagirdlərin şəxsiyyət kimi inkişafına istiqamətlənmiş təlim-tərbiyə işləri nəticəsində şagirdlərin bilik, bacarıq və vərdişlərin formalaşması zəif öyrənilir və qiymətləndirilir.

Innovativ texnologiyaların tətbiqi sistemli xarakter daşımır, burada əldə edilən yeni pedaqoji vasitələr, layihələr və texnologiyalar məhdud sayda müllimlər tərəfindən tətbiq olunur. Şagird psixikasına, onun cəmiyyətin tələblərinə uyğun şəxsiyyət kimi formalaşmasına təsir göstərə biləcək təlim, tərbiyə və qiymətləndirmənin inteqrasiyası hələ ki həyata keçirilmir, şagirdlərin təlimimin məqsədləri, məzmunu və texnologiyaları ilə uzlaşdırılmır.

Azərbaycan məktəblərində təlim-tərbiyə fəaliyyətinin nəticələri sosial-psixoloji və sosial-pedaqoji baxımından kifayət qədər qiymətləndirilmir, şagirdlərin fəallığı və müstəqilliyi, koqnitiv və emosional-iradi sahələri təhlil edilib dərindən öyrənilmir, nəticədə də münbit emosional-psixoloji şərait əldə edilmir. Təhsil alanlarda nailiyyətə motivasiya zəifdir; formalaşmış məqsədyönlülük, sərbəst planlaşdırma və şəxsi tədris fəaliyyətinin təşkili məsələlərində çətinliklər var, təcrübəni sistemləşdirmək və təhlil etmək bacarıqları aşağı səviyyədədir. Nəticədə təhsil ocağının problemlərinin həllinə innovativ fəaliyyət, demək olar ki, yardım etmir.

Əlavə etmək lazımdır ki, 2020-ci ilin zəfərli 44 günlük İkinci Qarabağ müharibəsinin nəticələri öyrənilən sahəyə də öz müsbət təsirini göstərməkdədir. Hal-hazırda azad edilmiş ərazilərdə yeni, innovativ tipli təhsil müəssisələrinin yaradılması "Böyük qayıdış" proqramına uyğun həyata keçirilir[2].

---

[2] Dövlətin məqsədi odur ki, "Böyük Qayıdış" proqramı tam olaraq icra olunsun //http://idp.gov.az/az/news/950

İnnovativ texnologiyaların şagird psixikasına təsirinin psixo-pedaqoji məsələləri bir neçə istiqamət üzrə təhlil olunub. Bir qrup tədqiqatlar uşaqların və şagirdlərin sırf psixi xüsusiyyətlərinin təhlili ilə bağlıdır. Azərbaycanda bu sahədə öz tədqiqatları Ş.Y. Abdullayeva, T.X. Ağacani, E.B. Bəylərov, R.V. Cabbarov, G.S. Kazımova, K.R.Əliyeva, R.İ. Əliyev, S.Y. Əliyeva, L.M. Əliyeva, G.Q.Hüseynova, R.H. Qədirova, F.B. Qudsi, İ.M.Məmmədov, M.Ə. Məmmədova, V.Q. Nağıyeva, Ç.Q. Verdiyeva, M.M. Vəliyeva, S.E. Xəlilova, Ş.İ. Xankişiyeva və s.[3] aparmışlar. Müxtəlif səpgidə uşaq

[3] Abdullayeva Ş.Y. Kiçikyaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 19 s.; Ağacani T.X. Kiçikyaslı usaqların psixi inkişafında oyun fəaliyyətinin rolu : psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 20 s.; Bəylərov E.B. Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafının psixoloji problemləri : psixologiya üzrə elmlər dok. ... dis. avtoreferatı: Bakı, 2013. - 37 s.; Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili : psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 24 s.; Kazımova G.S. Kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu : psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 22 s.; Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etno-psixoloji əsasları: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 58 s.; Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etno-psixoloji əsasları: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 58 s.; Əliyeva S.Y. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında valideyn-uşaq münasibətlərinin rolu : psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2003. - 24 s.; Əliyeva L. M. Məktəbəqədər yaşlı uşaqların psixi inkişafında valideyn və tərbiyəçilərin rolu : psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 22 s.; Qədirova R. Qrupdaxili favoritizm və qrupxaricinin qaralanması prosesləri arasındakı qarşılıqlı münasibətlərin eksperimental təhlili // «Psixologiya» jurnalı, Bakı, 2007, №2, s.71-86; Гусейнова, Г.Г. Этнопсихологические особенности социальной перцепции в юношеских группах: автореферат дис. ... канд. психол. наук: Баку, 1995. - 31 с.; Qudsi F.B. İnternetdən istifadə edən məktəblilərin davranışının müqayisəli sosial-psixoloji təhlili: Tehran-Bakı: psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2016. - 22 s.; Мамедов И.А. Система работы по психологической службе в средней школе: автореферат дис. ... д-ра психол. наук : Баку, 2005. - 62 с.; Məmmədova M. Ə. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafındakı çatışmazlıqların psixokorreksiyasi : psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2013. - 18 s.; Xəlilova S.E. İbtidai siniflərdə təlim materiallarının mənimsənilməsində mümarisələrin rolu:

psixologiyası, məktəb və məktəbdənkənar vaxtlarında idrak fəallığı, emosional durumu, qrupqaxili münasibətlər təhlil olunmuş, müəllim-şagird, uşaq-vaideyn münasibətləri baxımından bu məsələlər münasibət bildirilmişdir. Şübhəsiz, bütün bu tədqiqatların elmi-nəzəri və tətbiqi bazası bizim tədqiqat üçün yardımçı rol oynamışdır.

M.M. Vəliyevanın tədqiqatında araşdırılan problematika müəyyən aspektdə (müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin formalaşmasının psixoloji xüsusiyyətləri) bizim tədqiqata yaxındır. Müəllimin innovativ fəaliyyətinə məhz kommunikativ və didaktik qabiliyyətlərin inkişafı yardımçı ola bilər[4].

Digər tədqiqatçılar qrupu, o cümlədən H.İ.Əliyeva, F.İ.Əliyeva, S.H.Əlizadə, C.B.Kuliyeva, L.F.Mürsəlbəyova, N.T.Rzayeva və başq.[5] məktəbli uşaq və gənclərin sosial-psixoloji porblemlərinin təhlilini bir çox pedaqoji-psixoloji məsələlərin həlli zəminində araşdırmışlar.

Daha bir istiqamət – ümumpsixoloji məsələlərin araşdırılmasıdır. Burada Ə.T Baxşəliyev, Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, B.H.Əliyev, R.R. Cavadova, M.A. Həsənova, H.K. Məmmədov, İ.Ə.Məmmədov, S.M.Məcidova, Z.A.Rzayev, S.İ.Səyidov və digər

---

psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2012. - 18 s.; Xankişiyeva Ş.İ. Yeniyetmələrdə idrak fəallığının inkişafının psixoloji xüsusiyyətləri: psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 22 s. və s.

[4] Vəliyeva M.M. Müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin formalaşmasının psixoloji xüsusiyyətləri : psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 22 s.

[5] Əliyeva H. İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2008. - 18 s.; Əliyeva F.İ. Bədii ədəbiyyatın qavranılmasının şəxsiyyətin inkişafına təsirinin sosial-psixoloji cəhətləri: psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2011. - 22 s.; Əlizadə S. H. Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri: psixologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: Bakı, 2014. - 22 s.; Kuliyeva C. B. Məktəb direktorunun idarəetmə üslubu və kollektivdə psixoloji mühitin formalaşmasına onun təsiri : psixologiya elm. namiz... dis. avtoreferatı: Bakı, 2008. - 21 s.; Мурсалбекова Л.В. Психофизиологические особенности познавательной деятельности студентов в условиях эмоционального стресса: автореферат дис. ... канд. психол. наук: Баку, 2008. - 22 с.; Rzayeva N. T. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 28 s.

tədqiqatçılar[6] psixoloji problemlərinin bir çox sahələrini araşdırmaqla həm də bizim tədiqatın metodoloji və konseptual əsaslarının formalaşmasına yardımçı olublar.

Xarici mütəxəssislərin bu sahədə fəaliyyəti demək olar ki, kifayət qədər genişdir. Ilk növbədə innovativ texnologiyaların məktəbin idarəolunmasında tətbiqi ilə bağlı N.B.Balobanova, V.P.Kvaşa, O.B. Kruşelnitskaya, V.A. Orlov, M.E. Saçkova, G.K.Rəhimbəyova, V.V. Utyomov, J.Druer, S.Keri, S.Keyz, S. Fridman, K. Klivington, R. Peterson, R. J. Sternberg, E.L. Grigorenko, S.Barros, F. Marcos, A.J. Gallard, J.F Gallaxer, Z. Yong, A.Kenneth, F.Səbzian, A.P.Gilakcani, J.Bauer, J. Kenton və s.[7] tədqiqatçıların adları çəkilməlidir. Bu sahədə onların əldə etdiyi

---

[6] Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp, Poliqraf korporasiysı, 2003, 365 s.; Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.; Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368 s. ; Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002. - 386 s. ; Məmmədov H. K. Menecment psixologiyası təşkilatlarda səmərəli fəaliyyətin əsasları kimi: psixologiya elm. namiz. ... dis. avtoreferatı: Bakı, 2004. - 30 s.; Мамедов И.М. Психологические особенности формирования личности трудновоспитуемых подростков в современных условиях: автореферат дис. ... д-ра философии по психологии: Баку, 2012. - 18 с.; Меджидова С.М. Социально-психологические типы "69": автореферат дис. ... д-ра психол. наук : Баку, 2007. - 45 с.; Мурсалбекова Л.В. Психофизиологические особенности познавательной деятельности студентов в условиях эмоционального стресса : автореферат дис. ... канд. психол. наук: Баку, 2008. - 22 с.; Рзаев З.А. Межличностные отношения в организациях в аспекте психологии менеджмента: автореферат дис. ... канд. психол. наук : Баку, 2001. - 23 с.; Сеидов С.И. Социальная психология творчества: автореферат дис. ... д-ра психол. наук : Баку, 1995. - 53 с.

[7] Балобанова Н.В. Влияние образовательной среды на интеллектуальное и личностное развитие мл. подростков. Дис. на соиск. уч. степ, доктора пед. н. Краснодар, 2002.; Кваша В. П. Управление инновационными процессами в образовании. Автореф. дис. канд. пед. наук. М.: 1994; Крушельницкая О.Б., Орлов В.А., Сачкова М.Е. Социальная психология образования как отрасль научного знания [Электронный ресурс] // Психологическая наука и образование psyedu.ru. 2013. № 2. С. 1–14. URL: http://psyjournals.ru/; Раимбекова Г. К. Современные инновационные технологии в школьном образовании [Текст] // Проблемы и перспективы развития образования:

faktlar və qənaətlər bizim tədqiqat istiqamətinin seçiminə və metodikalara əsaslı şəkildə təsir göstərmişdir.

Ümumpsixoloji və pedaqoji problematikanın metodoloji və nəzəri tərəflərini araşdıran M.V. Gamezo, L.A.Matveyeva, E.A. Petrova, S.L.Rubinşteyn, M.S.Tkaçova, T.V.Qabay, L.S.Vıqotski kimi tədqiqatçıların[8] adı çəkilməlidir. Bu sahədə formalaşan psixoloji və pedaqoji biliklər və faktlar dissertasiya işinin ümummetodoloji strukturuna və məsələlərin işlənməsinə bizə köməklik etmişdir.

Bununla belə ümumi və peşə təhsil sisteminin pedaqoji təcrübəsində innovasiyalar, innovativ texnologiyalar, bunların uşaqların psixikasına təsiri, burada yaranan xeyli sayda psixoloji-pedaqoji məsələlərin həlli istiqamətində elmi iş aparılmayıb, Azərbaycan təhsil sistemində öz həllini gözləyən kifayət qədər çətin

---

материалы VIII Междунар. науч. конф. (г. Краснодар, февраль 2016 г.). — Краснодар: Новация, 2016. — С. 179-183; Druer J. Schools for thought: A science of learning in the classroom. -Cambridge, MA: MIT Press; Carey S. Conceptual change in childhood. Cambridge. MA: MIT Press, 1985; Case R. Intellectual development: Birth to adulthood. N.Y.: Academic Press, 1985; Friedman S., Klivington K., Peterson R. The brain, cognition and education.-Orlando, Fl: Academic Press; Siegler R. Mechanisms of cognitive growth: Variation and selection// Mechanisms of cognitive development/Ed. R.J. Sternberg. NV.,1984; Sternberg, R. J., & Grigorenko, E. L. (2000). Teaching for successful intelligence. Arlington Heights, IL: Skylight Training and Publishing Inc.; Fouzieh Sabzian, Abbas Pourhosein Gilakjani. Teachers' Attitudes about Computer Technology Training, Professional Development, Integration, Experience, Anxiety, and Literacy in English Language Teaching and Learning // International Journal of Applied Science and Technology, Vol. 3 No. 1; January 2013, pp. 67-75; Bauer, J., & Kenton, J. (2005). Toward technology integration in the schools: Why it isn‟t happening. Journal of Technology and Teacher Education, 13(4), 519-546.

[8] Гамезо М. В., Петрова Е. А., Орлова Л. М. Возрастная и педагогическая психология. – М.: 2003; Матвеева Л.В., Аникеева Т.Я., Мочалова Ю.В., Макалатия А.Г. Восприятие детьми дошкольного и младшего школьного возраста образов героев отечественных и зарубежных мультфильмов. // Вестник Московского университета. Серия 14. Психология. — 2019. — №3 — с.105-123; Сергей Леонидович Рубинштейн. Очерки. Воспоминания. Материалы. К 100-летию со дня рождения. Ред. Б. Ф. Ломов. Москва: Наука, 1989; Выготский Л. С. Педагогическая психология. – М., 1982

müəllim-şagird, şagird-valideyn və s. müstəvilərdə problemlər formalaşmışdır ki, bu dissertasiya işində bunların həlli istiqamətində biz də öz töhfəmizi gətirməyə çalışarıq.

**Tədqiqatın obyekti:** innovativ texnologiyalar.

**Tədqiqatın predmeti:** şagird psixikasına innovativ texnologiyaların təsirinin pedaqoji-psixoloji məsələləridir.

**Tədqiqatın məqsədi və vəzifələri** innovativ texnologiyaların şagird psixikasına innovativ texnologiyaların təsirinin pedaqoji-psixoloji məsələlərinin araşdırılmasıdır.

Bu məqsəddən aşağıdakı **vəzifələr** irəli gəlir:

- Baza xarakterli anlayışlarının məzmununu və mahiyyətini təyin etmək, onların dissertasiya mövzusu üçün konseptual-metodoloji əhəmiyyətini araşdırmaq;
- Azərbaycan təhsil sisteminin innovativlik baxımından iştirakçılarının fəaliyyət sahələrini, xarakterini, xüsusiyyətlərini, burada dövlət tərəfindən təyin edilən əsas inkişaf istiqamətlərini təhlil etmək, lazımi tövsiyələri vermək;
- innovativ texnologiyaların tətbiqində psixoloji amillərin nəzərə alınmasında dünya təcrübəsinin araşdırılması, azərbaycan reallıqları ilə müqayisələrin aparılması;
- innovativ texnologiyaların tətbiqində müəllim şəxsiyyətinin rolunun ixtisasartırma yolu ilə imkanların öyrənilməsi və lazımi qənaətlərin əldə edilməsi;
- Ibtidai, orta və yuxarı siniflərdə innovativ texnologiyaların tətbiqinin psixoloji aspektlərinin eksperimental yolu ilə öyrənilməsi və nəticələrin ümumiləşdirilməsi;
- tədrisdə fənlərarası inteqrasiya prosesinin innovativ metodların tətbiqinə təsiri məsələsinin araşdırılması.

**Tədqiqatın metodları.** Müasir psixologiya, pedaqogika, bütövlükdə sosial və humanitar elmlərin qovşağında formalaşan ümumelmi metodlar və prinsiplər təşkil edir. Buraya daxildir:

- sistem yanaşma və təhlil;
- uşaq və yaş psixologiyasının başlıca ideyaları və prinsipləri, pedaqoji psixologiyanın tədqiq etdiyimiz problemlə əlaqədar olaraq indiyə qədər irəli sürülmüş ümumelmi müddəalar və ideyalar, uşaq

psixikasının öyrənilməsi ilə bağlı olan metodik işləmələr və tövsiyələr;

- Azərbaycan təhsil sistemində qəbul edilmiş inkişaf strategiyası üzərində qurulan təlim-tərbiyə işinin təşkili və buradan irəli gələn idərəçilik və inkişaf xüsusiyyətləri.

Konkret tədqiqat metodları qismində biz xarici alimlər tərəfindən hazırlanmış və artıq aprobasiyadan keçmiş metodikalara müraciət etmişik.

**Tədqiqatın fərziyəsi**.

İnnovativ texnologiyaların şagird psixikasına təsiri bir sıra amillərlə yanaşı təlimin fəal metodlar üzərində qurulmasından, yaradıcı təhsil mühitinin qurulmasından və təhsil prosesində adekvat əks əlaqə mexanizminin təşkilindən də asılıdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Yeni innovativ tədris texnologiyalarının təsiri mürəkkəbdir və təkcə eksperimental təsirin sistemli şəkildə həyata keçirildiyi sahələrə deyil, həm də öyrənmə ilə bilavasitə əlaqəsi olmayan şagird şəxsiyyətinin digər strukturlarına da təsir göstərir.

2. Metodik xarakterli fənlərarası əlaqələri aktuallaşdıran yeni tədris texnologiyasının təsiri şagirdlərin intellektual qabiliyyətlərinin artmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

3. Ümumiləşdirmənin zehni əməliyyatları, nəzəri, elmi konsepsiyaların formalaşması prosesi üçün ən əhəmiyyətlisi kimi, əlaqələndirilmiş təlimin təhsil texnologiyasından ən çox təsirlənir.

4. Mütərəqqi pedaqoji texnologiyalar haqqında biliklər və onlardan təhsildə istifadə şagirdlərin daha çox bilik və bacarıqlara yiyələnməsini təmin edə bilər. Burada motivasiyanın əhəmiyyətini xüsusi olaraq göstərmək lazımdır.

**Tədqiqatın elmi yeniliyi**.

Pedaqoji psixologiya elmində Azərbaycan reallıqlarını əks etdirən və innovativ texnologiyalarla bağlı olan bu tədqiqat elmi praktikada birincidir. Bu baxımından burada əldə edilən nəticələr, irəli sürülən tövsiyələr dissertasiya möbzusunun elmi yeniliyini təşkil edir.

1.Tədrisin innovativ metodikalar üzərində qurulması kollektivin bir sosial qrup olaraq təşəkkül tapması, burada şəxsi və kollektiv

məqsədlərin həmahəng inkişafı uğurla reallaşır, fəaliyyətin motivasiya prosesi sürətlənir. Hər bir fərdin şəxsi motivasiyası bir növ ümumi məqsədə doğru hərəkət edir, onunla birlik təşkil edir. Bunun da əsasında kollektiv fəaliyyətə daha ürəklə qoşulur, öz yaradıcı potensialını inkişaf etdirir.

2. Müasir məktəb kollektivinin fəaliyyətində yeni, İKT və elmin digər nailiyyətlərinə əsaslanan metodikalar sürətlə özünə yer tapır. Bunların tətbiqi şagirdlərin koqnitiv inkişafına, motivasiyasına, bütövlükdə şüur fəaliyyətinə əsaslı şəkildə təsir edir. Tədqiqat göstərdi ki, demokratik üsluba əsaslanan metodik yanaşmalar uşaqların dərsə marağını artırır, onları daha fəal, təşəbbüskar və uzaqgörən edir. Digər tərəfdən, tələbkar və təcrübəli müəllim ənənəvi metodlardan irəli gələrək daha möhkəm intizama və məsuliyyətə nail ola bilər. Demək olar ki, hər iki yanaşma bir-birini tamamlayır. Eyni zamanda yeni texnologiyalar dərs prosesini daha çevik və səmərəli edir, müəllim-şagird münasibətlərini isə işgüzarlıq və dostluq prinsipləri tələblərinə uyğun qaydalaşdırır.

3. Ibtidai məktəb yaşlarında olan uşaqların pedaqoji təsir baxımından düşüncə psixologiyasının problemləri araşdırılıb. Müxtəlif növ yaddaş və əqli nəticəyə qabiliyyətinə dair tədqiqatın nəticələrinə görə, müəllimlərin ənənəvi metodlarından istifadə etməsi, eləcə də müəllim şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərindən istifadə edilməsi, uşaq şəxsiyyətinin müəyyən xüsusiyyətlərinin formalaşmasına mühüm təsir göstərir. Eyni zamanda, sosial və məktəb mühitində uşaqların yaradıcı təsəvvürlərinin və sosial fəaliyyətinin inkişafının əhəmiyyəti gələcəkdə zəruri bilik qabiliyyətlərinin formalaşması üçün vacibdir.

4. Ayrı-ayrı məktəblərin timsalında biz müəllimin istifadə etdiyi innovativ metodikaların nəticəsi olaraq şagirdlərin təlim və tərbiyəyə münasibətini, özünüqiymətləndirmə və motivasiya sahəsində vəziyyətini təhlil etməyə çalışdıq. Təlim-tərbiyə prosesində müəllim-şagird ünsiyyəti nə qədər geniş əsaslarda qurulsa və hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alsa, bir o qədər nəticə səmərəli olacaqdır.

5. istər şəhər, istərsə də müxtəlif bölgələrdən olan şagird və müəllimlərin iş üslubu, formalaşmış ünsiyyət xarakteri, seçilən

metodik yanaşmalar və fəndlər bir-birini tamamlayır. Sinifdə oxuyan şagirdlərin yaşı, yaşadıqları həyat mərhələsi, xasiyyəti, temperamenti, iradi-emosional xüsusiyyətləri müəllim tərəfindən nəzərə alınaraq istifadə etdiyi texnologiyaların tətbiqi zamanı istifadə olunur. Müəllimin də yaşı, təcrübəsi, sosial-psixoloji keyfiyyətləri və peşə keyfiyyətləri sinifdə şagirdlərin şagirdlərin psixi cəhətdən fərdi keyfiyyətlərinindən daha yüksək peşəkarlıqla istifadə olunması üçün zəmin yaradır, şagirdlərin özündəəminlik dərəcəsinin orta, yəni normal həddlərində qalmasına köməklik edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Cəmiyyətin inkişafını, nəsillərarası inteqrasiyanı mədəniyyətin ötürülməsində varisliyini təmin edən təhsil sistemi daimi təkmilləşdirməli, yeni insan tərbiyyəsində öz sözünü deməyi bacarmalıdır. Gənc nəslin həyata hazırlığında əhəmiyyətli rol oynayan təhsil sistemi yeni, mütərəqqi, innovativ texnologiyaların tətbiqinə əsaslandırılmalıdır. Burada həyat səviyyəsi, elmi və istehsalat sahələrinin inkişafı ilə yanaşı təhsildə tədrisin səmərəliliyi və yüksək keyfiyyəti də əhəmiyyəti çoxdur. Hər bir dövrün tədris - təlim xüsusiyyətləri bir çox amillərlə yanaşı təhsil verən və təhsil alanların mənəvi-psixoloji vəziyyətinə təsir edən psixo-somatik durum onların fiziki sağlamlığı, irsiyəti, böyüdüyü sosial mühitlə əlaqəlidir.

Müstəqil Azərbaycan Respublikasının Təhsil sistemin qarşısında duran mühüm vəzifələrdən biri də hərtərəfli inkişaf etmiş, həyat yolunu əldə etdiyi biliklər və bacarıqlar üzərində qura bilən, geniş təfəkkürə malik şəxsiyyətin yetişdirilməsidir. Bilikləri əldə etmək və bacarıqlara çevirmək mexanizmi olduqca mürəkkbədir. Konkret fənn, konkret müəllim tərəfindən deyilir və burada həmin məlumatı mənimsəyən konkret sagird şəxsiyyəti var. Hər üç tərəf tarixən dəyişkən olduğu üçün təhsil sistemi yarışında yeni-yeni məsələlər olur. Bunların həllində elm və mexanika, pedoqogika və psixologiya kimi konkret sahə nümayəndələri iştirak edir.

Azərbaycanda təhsil islahatları ardıcıl olaraq həyata keçirilir. Bunların nəticəsində təhsil sistemində həyata keçirilən bütün fəaliyyət sahələri beynəlxalq təhsil sisteminin bir çox tələblərə cavab verməyə başlamışdır. Bununla belə öz həllini gözləyən hələ çox məsələlər qalmışdır.

Praktik əhəmiyyəti aparılmış araşdırmalar və eksperimental tədqiqat ilə bağlıdır. Məktəb kollektivinin innovativ texnologiyalar üzərində qurulan işin psixoloji-pedaqoji baxımından dəqiq qiynətləndirilməsi zərurəti faktı aşkarlanmış və sübuta yetirilmişdir. Tətbiq edilən metodikalar Azərbaycan reallıqlarına uyğunlaşdırılmalı və istifadə olunmalıdır. Bundan başqa, tədqiqatın nəticələri müəllimlərin peşə hazırlığında, tədris prosesində də istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi**. Əldə edilən nəticələr Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında, yerli və beynəlxalq konfranslarda müzakirə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universiteti, Sosial və pedaqoji psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 8 səhifə, birinci fəsli 42 səhifə, ikinci fəsli 51 səhifə, üçüncü fəsli 23 səhifə, nəticə hissəsi 6 səhifə, ədəbiyyat hissəsi 13 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 145 səhifə, 250 758 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı, işlənmə dərəcəsi şərh edilmiş, obyekti və predmeti, məqsəd və vəzifələri, metodologiyası və nəzəri əsasları, müəllifin tədqiqat işi ilə bağlı nəticələri, elmi yeniliklər, işin nəzəri və praktik əhəmiyyəti, nəticələrin tətbiq olunmasının əhəmiyyəti və nəhayət, dissertasiyanın quruluşu müəyyən olunmuşdur.

Birinci, "**Pedaqoji psixologiyada tədris prosesi: şagird-müəllim münasibətləri**" adlı fəslin birinci paraqrafında ("**Tədrisin keyfiyyətinin yüksəldilməsində müəllim şəxsiyyətinin rolu**") ümumi şəkildə müəllimlik peşəsi, müəllim şəxsiyyəti barədə, peşəkarlıq keyfiyyətləri ilə yanaşı sosial-psixoloji keyfiyyətləri də nəzərdən keçirilir. Müəllim fərdi şəkildə hər bir şagirdlə təlim keçir,

onun şəxsiyyət xüsusiyətlərini, o cümlədən təfəkkür tipini, xasiyyəti, temperamenti, istedadı nəzərə almalıdır. Klassik pedaqoji və psixoloji fikir tarixində müəllim şəxsiyyəti problemi tədqiqat obyektlərindən biri olmuşdur.

Müasir dövrdə təhsilin psixologiyası ilə yanaşı həm də təhsilin sosial psixologiyası sahəsi sürətlə inkişaf edərək psixologiyanın mühüm sahələrindən birinə çevrilir[9].

Bir çox təhsil və kompetensiyalar, məktəb və cəmiyyət arasında mövcud qarşılıqlı təsiri xüsusiyyətlərini nəzərə alınaraq müxtəlif tədris üslubları mövcuddur. Müəllimlər real problemləri və uyğun qərarların seçilməsi baxımından prioritetlərin təyinində bilavasitə iştirak etməlidir[10].

Müasir dövrün tədris xüsusiyyətlərindən biri də müxtəlif texniki və texnoloji innnovasiyalardan faydalanıb uşağın şüuruna və qəlbinə yolun tapılmasıdır. Belə tələb və bu istiqamətdə inkişaf yenə də müəllimdən həm özünün, həm də şagirdin koqnitiv və emosional imkanlardan faydalanaraq öz məqsədinə nail olmaqdır[11].

Müəllim, əsasən, şagirdin məsləhətçisi, onun fərasətini və orijinal bacarığını qiymətləndirən, şagirdi fəal olmağa, müstəqilliyə, təşəbbüskarlığa həvəsləndirən rolunda çıxış edir. Burada dünyaya müəllimin münasibətinə təsir edən mental amilin öz rolu var. Azərbaycanlı olaraq, onun üçün həyatda əhəmiyyətli olan xüsusi mədəni kodlar var ki (ailə, din, etiqadlar, əcdadlara münasibət, ev, uşaqlar, qocalar və s.), onun psixoloji durumuna təsir edir.

Birinci fəslin "**Müasir informasiya-kommünikasiya texnologiyalarının tədris metodikalarına təsiri xüsusiyyətləri**"

---

[9] Крушельницкая О.Б., Орлов В.А., Сачкова М.Е. Социальная психология образования как отрасль научного знания [Электронный ресурс] // Психологическая наука и образование psyedu.ru. 2013. № 2. С. 1–14. URL: http://psyjournals.ru/

[10] Susana de Souza Barros and Marcos F. Elia. Physics teacher's attitudes: how do they affect the reality of the classroom and models for change? // Section D2, from: Connecting Research in Physics Education with Teacher Education An I.C.P.E. Book © International Commission on Physics Education 1997,1998

[11] Gallard A.J. and Gallagher, 1994, J.F., A case study of a national science curriculum and teacher conflict, Int. J. Sci. Educ., Vol 16, No 6, p.639.

adlı ikinci paraqrafında pedaqoji psixologiyanın vacib sahələrindən biri olan tədris metodikalarda psixoloji-pedaqoji amillər sırasında müasir texnoloji imkanları nəzərdən keçirilir.

Məlumdur ki, təlim həmişə təhsil alanın bacarıqlarına və qabiliyyətlərinə, habelə onun hazırlıq səviyyəsinə və xarakterinə əsaslanır. Innovasiya texnologiyalarının xüsusiyyətləri elə ondan ibarət idi ki, burada insan şüurunun baza imkanları, koqnitiv səyləri dayaq olur, bununla birlikdə yeni vasitələrin üzə çıxarılması və istifadə olunması, bunların müəllimin səyləri, onun yanaşmaları və metodikaları uyğunluğu prosesi həyata keçirilir[12].

Azərbaycan məktəbində innovativ metodikaların tətbiqi ən çox təlimin interaktiv formaları şəklində rast gəlinir. Bu halda təhsil alanla (ayrılıqda, kiçik qruplarda) işin ən uğurlu formaları axtarıb tapılır. Təəssüf ki, bir çox müəllimlər psixologiya və pedaqogika klassiklərinin əsərlərini araşdırmırlar, şagirdlərin psixologiyasını dərk etmirlər. Həmçinin öyrədilən fənnin məzmunu, müəllim tərəfindən onun mənimsəməsi səviyyəsi, bu və digər fənlər arası əlaqələr da müəyyən məna kəsb edir. Daha sonra müəllim və uşaqlar arasında empatiyanın xarakteri, bütovlükdə məktəbdə, regionda mənəvi-psixoloji iqlim, ölkədə müəllimin, təhsilin, təlimin statusu müəyyən əhəmiyyət kəsb edir.

Beləliklə, pedaqoji psixologiya nöqteyi-nəzərindən innovativ texnologiyalar ümumiyyətlə təlim psixologiyasında düzgün tarazlaşdırılmış yanaşmalar deməkdir. Azərbaycanda da bu istiqamətdə, elmi-təcrübi tədqiqatlarla yanaşı həm praktik addımlar atılır (bununla bağlı nümunələr və faktlar gətirilir).

Biz 11 tapşırıq ilə ibtidai sinif şagirdlərinə və onlarla işləyən müəllimlərə müraciət etdik. Qarşımıza məqsəd iki 4-cü sinifin uşaqlarının koqnitiv inkişaf səviyyəsini müqayisə etmək idi. Bunlara müxtəlif müəllimlər (Masallı rayonunun Boradigah qəsəbəsinin orta ümumtəhsil məktəbi; tədqiqat 2016/2017-ci tədris ilinin ikinci yarımillikdə keçirildi, $4^a$ (23 nəfər, 12 qız və 11 oğlan) (müəllimin 5 il təcrübəsi var idi) və $4^b$ siniflərində (27 nəfər, 10 qız

[12] Выготский Л. С. Педагогическая психология. – М.: 1982

və 17 oğlan). $4^b$ sinfində dərs deyən müəllim 15 il təcrübəyə malik idi.

12 sorğu materialdan 8-12-ci anketlər və testlərin cavabları bu paraqrafda qarşıya qoyulan məqsədə uyğun təhlil olundu. Əvvəlki 1-7 materiallar üzrə tədqiqat və ümumiləşdirmə işi aparılıb, yekun nəticə isə belədir: burada müəllimin şəxsi keyfiyyətləri, onun stajı və rəhbərlik üslubu siniflə işində böyük əhəmiyyətə malikdir. Yalnız əqli nəticəyə gəlmək qabiliyyətində $4^a$ sinfi $4^b$ sinfi qabaqladı. $4^b$ sinifi yaddaşın müxtəlif növlərinin göstəriciləri üzrə $4^a$ sinifi əminliklə keçirdi. Beləliklə, $4^a$ sinif hələ yaxşı yaddaş keyfiyyətlərinin formalaşması yolundadır, pedaqoq bu cəhətdən öz üzərində çox işləməlidir. Bununla belə müasir informasiya cəmiyyəti reallığın qiymətləndirilməsində daha açıq, çevik düşüncəni və yanaşmaları tələb edir. Gətirilən pedaqoji yanaşmaların hər birində bu istiqamətdə kifayət qədər perspektivləri və üstünlükləri var.

8-12-ci anketlərdən əldə edilən nəticələrdən belə bir ümumi qənaətə gəlmək olar ki, $4^a$ sinfinin cavabları daha dəqiq paylanılıb, $4^b$ sinfinin cavabları isə bir qədər kəskin fərqlərlə müşahidə olunur. Bu o deməkdir ki, özünüqiymətləndirmə burada kifayət qədər obyektiv və tarazlıdır. Yüksək özünüqiymətləndirmə yaxşı oxuyan və fəal uşaqlarda ifadə olunub. $4^b$ sinfinin cavabları daha mürəkkəb xarakter daşıyır. Hesab edirik ki, cavabların belə paylanılması onlarla aparılan təlim-tərbiyə işlərinin metodikaları da öz təsirini göstərmişdir. Şüurlarında müəyyən məhdudluq və buxov hiss olunur. $4^a$ sinfinin göstəricilərində belə pərakəndəlilik yoxdur. Səbəbi şagird təfəkkürü ilə aparılan işin fərqli metodikasındadır. Bütün şagirdlər (bir nəfər istisna olmaqla) yaxşı vizual yaddaşı nümayiş etdirmişlər. Bununla belə $4^b$ sinif şagirdlərində vizual yaddaş (xüsusilə oğlanlarda) bir qədər $4^a$ sinif şagirdlərindən zəif çıxdı. $4^b$ sinifdə müxtəliflik daha çoxdur. Növbəti test göstərdi ki, bütövlükdə ibtidai sinif şagirdlərinin qısamüddətli yaddaşı yaxşı olur.

Hər iki sinifdə özünəməxsus yaddaşa malik uşaqlar var. Eyni zamanda ümumi götürsək daha təcrübəli müəllimi olan sinifin ($4^b$) oğlanları və qızları hər iki halda (ardıcıllığa riayət etmək baxımından) $4^a$ sinfinin uşaqlarından bir qədər geridə qalırdılar.

Bununla belə yüksək göstəriciləri olan şagirdlər daha çox özünü 4b sinfində göstərmişlər. Deməli, daha qabaqcıl təcrübəyə əsaslanan müəllimin sinifi orta göstəricilərlə səciyyələnir.

Birinci fəslin sonuncu paraqrafında ("**Innovativ texnologiyaların tətbiqində psixoloji amillərin nəzərə alınması: dünya təcrübəsi**") innovativ texnologiyaların müasir anlamı baxımından onların tətbiqinin psixoloji amillərlə bağlılığı araşdırılır. Müasir elmi yanaşmalara uyğun olaraq dissertasiyada innovativ tədris texnologiyaların istiqamətləri, ən müxtəlif pedaqoji innovasiyalar nəzərdən keçirilir. Göstərilir ki, bu ilk növbədə formalaşmış ənənələrdən və müəssisənin statusundan, həm də psixoloji amil olan motivasiyadan asılıdır.

Hal-hazırda Azərbaycan məktəblərində həyata keçirilən innovativ təlim formalarının psixoloji təsir yollarından biri də sinifdaxili inkişafına təsiridir. Aparılan tədris işlərinin təsiri belə olur ki, sinifdə daha çox fərdi müraciətlər yox, mikroqruplar səviyyəsində işlər aparılır, bu da qrupdaxili və qruplararası həmrəyliyi və bütövlüyü artırır.

Dissertasiya işinin "**Tədrisin müxtəlif mərhələlərində innovativ metodların istifadəsinin psixoloji əsasları**" adlı ikinci fəsildə ilk növbədə "**Ibtidai məktəbdə innovativ texnologiyaların tətbiqinin psixoloji aspektləri**" araşdırılır. Göstərilir ki, hər bir dövrdə yeni nəsillərin sosial həyata hazırlığı özünəməxsus şəkildə həyata keçirilir. Bununla belə ümumi əsaslar da var ki, onları nəzərə almadan tədris prosesi uğurlu ola bilməz. Əsaslardan biri pedaqoji psixologiyanın prinsipləri və qaydalarıdır. Tədrisin didaktik tələblərinə uyğun olaraq şagird-müəllim münasibətləri xüsusi psixoloji etika üzərində qurulur. Müəllimin sosial statusu, cəmiyyətdə tutduğu mövqe, onun yaşadığı şəraiti də onun əməyinin bir çox psixoloji xüsusiyyətlərini təyin edir. Bu baxımdan texnoloji inkişaf, metodik yenilikçilik müəllim-şagird münasibətlərinin yeni psixoloji xüsusiyyətlərinin, o cümlədən motivasiyanın formalaşmasına təsir göstərir.

Xüsusi testlər əsasında hər iki sinif şagirdlərinin koqnitiv bilikləri toplamaq və əldə etmək bacarığı yoxlanıldı. Məlum oldu ki, didaktik prinsiplərə, ciddi intizama əməl olunan sinifdə (burada

müəllim-şagird münasibətlərdə avtoritar üslub üstünlük təşkil edir) daha yüksək nəticələr əldə edilmişdir. Konkret olaraq söhbət qənaətə gəlmə qabiliyyətindən gedir. Bu zaman anlayışlar həm ümumiləşdirilir, həm də bəziləri istisna olunurdu. Öz yaşına və sinif proqramına uyğun testlərin həllində Ş.Q. üstün cavablar qazandı.

Çünki əsas qüvvəsini sinifə lazımi materialların çatdırılmasına və biliklərin yoxlanılmasına sərf etrmişdir. Müəllimlərdən birinin problemli tədris üzərində qurulan yanaşmada daha səmərəli şəkildə tədris materialın modullar üzrə paylanması, şagirdlər qarşısına yeni vəzifələrin qoyulması zamanı güclü motivasiyanın yaradılması, müstəqil, sərbəst və yaradıcı işə üstünlük verilməsi, özünənəzarətlə müəllim nəzarətin bir-birinin tamamlaması məsələləri üstünlük təşkil edir. Nəticəsi də fərqli olur.

Nəzərə almaq lazımdır ki, ibtidai sinifdə oxuyan şagirdlər ilk müəllimlərinə xüsusi olaraq bağlanırlar. Onların təsəvvüründə müəllim şəxsiyyəti olduqça unikal, təkrarsız və sevilməyə, hörmətə layiq olan bir insandır.

Həm də qeyd etmək olar ki, şagird-müəllim münasibətlərində ailədə övlad-valideyn münasibətləri ilə oxşarlıq var. Nəzərə almaq lazımdır ki, müəllim (xüsusilə ibtidai məktəbdə) statusu ailənin, bütünlüklə cəmiyyətin təsəvvüründə olduqca yüksəkdir.

Bir sıra pedaqoji-psixoloji keyfiyyətlər var ki, onların balansında hansısa keyfiyyətə üstünlük verilsə, müəlimin çatdırmaq istədiyi innovativ texnologiyalarında müəyyən fərqlilik yaranır. A.H. yaşda bir qədər cavan olduğuna görə öz suggestiv bacarıqlarından kifayət qədər geniş istifadə edə bilmir. Məhz buna görə sinifə emosional-iradi təsir etmədə digər sinif rəhbərindən bir qədər geridə qalır. Dərsdə demokratik idarəçilik üslubu daha çox nümayiş olunduğuna görə uşaqlar fikrini yayır, əsas mətləbdən uzaqlaşır və lazımi nəticələr əldə edə bilmirlər.

Bir üstünlük barədə də demək lazımdır: müəllimlərin yaşında və stajında olan fərqlər. Cənub bölgəsində yerləşən bu məktəbin həm müəllimləri, həm də şagirdləri yerli əhalisindəndir. Burada ənənəçilik, etiqad (dini inam), adət-ənənələrin gözlənilməsi, qadın və kişinin statusunda digər bölgələrdən müəyyən fərqlər özünü biruzə verir.

Hər iki sinifin şagirdləri arasında paylanılan özünüqiymətləndirmə testə verilən cavablar göstərdi ki, uşaqların psixoloji xarateristikalarında sinifdən sinifə fərq var. Məlum oldu ki, fəal şagirdlərin mənimsəməsi adətən ortadan bir qədər yuxarı olur, onlarda dərslə, məktəb mühiti ilə bağlı yüksək motivasiya formalaşır.

Digər tərəfdən yeni yexnologiyaların tətbiqi psixoloji amilin əhəmiyyətini daha da artırır. Burada diqqət, hafizə, düşüncə tərzi müxtəlif təzyiqlərə və dəyişikliklərə məruz qalır. Texnologiya resursları müəllimlərin dil təlimatına tam zəmanət vermir. Müəllimlər tədris və təlimin təkmilləşdirilməsində bu resursların faydalı və faydasız olanları yalnız təcrübə əsasında təyin edə bilərlər.

Müxtəlif növ yaddaş və əqli nəticə qabiliyyətinə dair tədqiqatın nəticələrinə görə, müəllimlərin ənənəvi metodlarından, eləcə də müəllim şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərindən istifadə edilməsi uşaq şəxsiyyətinin müəyyən xüsusiyyətlərinin formalaşmasına mühüm təsir göstərir.

**“Orta siniflərdə innovativ texnologiyaların tətbiq edilməsi şəraitində şagirdlərin tədris fəallığı və psixi durumu”** adlı növbəti paraqrafda innovasiya fəaliyyətinin texnologiyaları ardıcıl olaraq araşdırılır. Məktəblərdə metodların tətbiqi məktəbin qazandığı təcrübədən və statusundan asılıdır. Həm də şagirdin öyrədilməsi prosesi də bir çox amillərdən asılıdır. Müşahidələr göstərir ki, tədrisin uğurlu təşkili uşaqlarda məntiqi təfəkkürün formalaşmasına müsbət təsir göstərir, diqqət və onun cəmlənməsi qabiliyyəti daha güclü olur, qısamüddətli yaddaş, uşaqlarda rənglərin qavranılmasına bacarıq yaxşılaşır, ana və xarici dillərə aid söz lüğətinin həcmi passivdən aktivə daha fəal keçir, uşağın məkan qavrayışı dəyişilir, xırda hərəkətləri (xırda motorika) inkişaf edir və s.

Azərbaycan məktəblərində keçirdiyimiz geniş tədqiqatlar (sorğuda həm şagirdlər, həm də müəllimlə bağlı suallar nəzərdə tutulmuşdur) göstərdi ki, sinifdə, dərsin məzmunundan, uşaqların yaşından və hazırlıq dərəcəsindən asılı olaraq keçirilən təlimin innovativlik imkanları müxtəlif dərəcədə istifadə olunmuş, nəticədə

bunun təsiri xüsusiyyətləri fərli olmuşdur. Sorğuda iştirak edən şagirdlər (hər sinifdən yeddi nəfər, sinifin təxminən üçdə biri) 5-8-ci və 9-11-ci siniflər qrupuna bölünmüşdü. Müvafiq olaraq cavabları da biz ayrı-ayrı altfəsillərdə təhlil etmişik.

Bu sorğu müvafiq olaraq müəllimlər və şagirdlər arasında keçirilmişdir. Burada əsas məqsəd məktəblərdə təhsil alan şagirdlərin təhsilə, kitab oxumağa, özünü intellektual cəhətdən inkişaf etdirməyə maraqlarının müəyyənləşdirilməsidir. Həmçinin, şagirdlərin dərsdən sonrakı məşğuliyyətləri, maraqları, sosial həyatı, planlaşdırdıqları məqsədləri, özlərinə inamın əsas göstəriciləri sorğunun ümumi məzmununu təşkil edir. Şagirdlərdən bəziləri sorğuda özlərini müsbət tərəflərini ön plana çəkməyə çalışmış, digər qismi isə daha çox reallıqlara üstünlük vermişlər. Sorğu özündə bir sıra psixoloji amilləri də ehtiva edir. Sorğu məktəblilər, müəllimlər və valideyinlərin qeyd olunmuş sualları düzgün qiymətləndirmələri üçün test və anket formalarında tərtib olunmuşdur.

Aparılan sorğu onu göstərir ki, müəllimlər və şagirdlər arasındakı ünsiyyətdə qarşılıqlı miinasibətlər əsas rol oynayır. Sorğudakı nəticələr də onu göstərir ki, təhsildə əsas məqsəd şagirdlərdə mənəvi keyfiyyətlərin, vətənpərvərlik hisslərinin, dəyərlərə hörmət hissinin formalaşdırılmasıdır.

Müəllim kollektivə yanaşmada bərabər münasibət əks etdirir, inam hissi zəif olan, özünü qiymətləndirməkdə çətinlik çəkən şagirdlərdə isə müsbət şəxsi keyfiyyətlər formalaşdırmağa çalışır. Sorğunun yekun nəticələri onu göstərir ki, təhsil normaları düzgün şəkildə tətbiq olunur və şagirdlərin təhsili ilə yanaşı, onların yaxşı mühitdə tərbiyə olunmasına, mənəvi cəhətdən düzgün şəkildə formalaşmaşına da diqqət yetirilir.

Tədqiqat Bakı Dövlət Universitetinin Azərbaycanın müxtəlif bölgələrindən gəlib təhsil alan tələbələrin iştirakı və yardımı ilə həyata keçirilmişdir. Biz Bakı şəhərinin 18 məktəbində, Gəncə şəhərinin iki məktəbində, Sumqayıt şəhərinin bir məktəbində və Salyan rayonunun bir məktəbində tədqiqatın keçirilməsinə müvəffəq olduq.

"Özündə əminliyin özünə qiyməti" testini keçən şagirdlərin əksər hissəsini özünə əmin olanlar təşkil edir. Nəticəyə əsasən orta özünə

əminliyin yuxarı səviyyəsinə aid olan şagirdlərdə əsas nəzərə çarpan məqam yaxın dostlarla öz hərəkətlərinin, planlarının müzakirəsinə ehtiyac duymasıdır. Ünsiyyət tələbatının formalaşdığı yaş dövründə bu məsələ müəyyən qədər aktuallaşır. Bir çox şagirdlərin düşüncəsində kimi özümə dost seçsəm daha yaxşı olar?, görəsən kim məni daha yaxşı başa düşər?, kim mənimlə dost olmaq istəyər?, kimlə maraqlarım üst-üstə düşür? və s. kimi suallar yaranır. Kommunikativ imkanların artırılması üçün geniş şəraitin yaradılması zərurəti meydana çıxır.

Sinif rəhbərinin uşaqların şəxsiyyətinin inkişafına yönəlmiş metodikası orta səviyyədədir. Şagirdlərə müstəqil fəaliyyətlərinin artırılması istiqamətində həm nəzəri, həm də praktik işlər aparır. Informasiya texnologiyalarından bir o qədər də geniş istifadə olunmasa da, şagirdlərə bu bacarıqlara yiyələnməyə şərait yaradır. Vaxtaşırı şagirdlərə gələcəkləri haqda düzgün istiqamət verir, maarifləndirici və motivasiyaedici söhbətlər aparır. Sinifdə problem yarandığı halda fərdi bacarıqlarından istifadə edərək diaqnostik qiymətləndirmə aparır və obyektiv nəticə çıxarır. Müəllim hər zaman peşəkar fəaliyyət üsullarına əsaslanan metodikaya üstünlük verir.

Beləliklə, bu məktəblərin timsalında biz müəllimin istifadə etdiyi innovativ metodikaların nəticəsi olaraq şagirdlərin təlim və tərbiyəyə münasibətini, özünüqiymətləndirmə və motivasiya sahəsində vəziyyətini təhlil etməyə çalışdıq. Ümumiyyətlə müəllimin şagirdlə ünsiyyət xüsusiyyətləri tədris nailiyyətlərini dəstəkləyən əsas şərtlərindən biridir.

Bu fəslin növbəti, "**Yuxarı siniflərdə təhsil texnologiyalarla bağlı vəziyyətə dair (keçirilmiş eksperimental tədqiqatın nəticələri)**" adlanan paraqrafda yuxarı siniflərdə təhsil texnologiyaların tətbiqində müəyyən xüsusiyyətlər təhlil olunur. Bunun üçün eksperimental tədqiqat keçirilmişdir.

9-11-ci sinif şagirdləri yeniyetməliyin yuxarı mərhələsində yetkinlik yaşına doğru hərəkət edir, sosiallaşma sahəsində yeni addımlar atırlar. Keçirilən fənlərin daha mürəkkəb olması müəllimlər qarşısında da yeni vəzifələr qoyur. Innovasiya texnologiyaları sırasında ən çox tətbiq olunan tənqidi təfəkkürün inkişafı texnologiyasını, problemli mühazirə sistemini, oyun

metodlarının istifadə texnologiyasını, xüsusi yoxlama metodikalarını, layihələr metodunu və s. göstərmək olar[13]. Burada fikir mübadiləsi, qrupda və fərdi şəkildə işləmək imkanlarından geniş istifadə olunur.

Bu paraqrafda yuxarı sinif şagirdlərin psixoloji durumuna, bacarıq və qabiliyyətlərin aşılanmasına tədri prosesinin necə təsir etməsi barədə əldə etdiyimiz məlumatlar təqdim olunur. Sorğu Bakının yeddi, Sumqayıtın – bir, ayrı-ayrı bölgələrdə üç məktəb kollektivində keçirilmişdir. Şagirdlərin maraqlarına, tələbatlarına, motivasiyasına, biliklərinə, arzu və istəklərinə müəllimin dərsdə seçdiyi metodik fəndlərin, fürsətlərin və bacarıqların istifadə etməsi necə təsir edir?

Müəllimin tədris prosesində hansı innovativ texnologiyalardan istifadə etdiyini yoxlamaq üçün də sorğu keçirdik. Aydın oldu ki, müəllim uşaqlarla təlim tədris prosesində innovativ texnologiyalardan geniş şəkildə istifadə edir. Tədris prosesi zamanı rol və işgüzar oyunlardan biliyin qiymətləndirilməsi üçün diaqnostik testlərdən, informasiya texnologiyalarından istifadə edir və bunun şagirdlərin dərsi qavramasının asanlaşdırdığını qeyd edir. Sorğudan bəlli oldu ki, tədris müəssisələrində innovasiya tədbirlərinin həyata keçirilməsi üçün maarifləndirici xidmətlərin təşkil olunma səviyyəsi ortadır, qənaətbəxs deyildir.

Daha sonra keçirilən sorğuda şagirdlərin özündəəminlik forması (səviyyəsi) dəyərləndirilməsidir. Düzdür, nəticələr çox aşağı olmasa da, düşünürəm ki, daha yüksək ola bilərdi. Bəzi hallarda görünür ki, uşaqlar da gələcəkdə uğur qazanmağa inam aşağı səviyyədədi.

Müəllimlərlə keçirilən sorğunun nəticələrinə görə, belə qənaətə gəlmək olar ki, müəllimlər innovasiya texnologiyalarından və yeni tədris üsullarından istifadə etməyə çalışırlar. Onların bu sahədə bilik və bacarıqların daha da təkmilləşməsinə, hər keçən il yeni standartlara uyğun texnologiyaların istifadəsinə ehtiyac var.

---

[13] Мартынова О.В. Применение инновационных технологий на уроках русского языка и литературы // https://nsportal.ru/shkola

Şagirdlərin metodik, yəni sinifdə aparılmış müxtəlif dərslərdə innovasiyanın informasiya vasitələrinin istifadəsi üçün zəruri bacarıqlar üzə çıxarılmalıdır.

Beləliklə, istər şəhər, istərsə də müxtəlif bölgələrdən olan şagird və müəllimlərin iş üslubu, formalaşmış ünsiyyət xarakteri, seçilən metodik yanaşmalar və fəndlər bir-birini tamamlayır. Sinifdə oxuyan şagirdlərin yaşı, yaşadıqları həyat mərhələsi, xasiyyəti, temperamenti, iradi-emosional xüsusiyyətləri müəllim tərəfindən nəzərə alınaraq istifadə etdiyi texnologiyaların tətbiqi zamanı istifadə olunur. Müəllimin də yaşı, təcrübəsi, sosial-psixoloji keyfiyyətləri və peşə keyfiyyətləri sinifdə şagirdlərin şagirdlərin psixi cəhətdən fərdi keyfiyyətlərinindən daha yüksək peşəkarlıqla istifadə olunması üçün zəmin yaradır, şagirdlərin özündəəminlik dərəcəsinin orta, yəni normal həddlərində qalmasına köməklik edir.

"**Orta məktəblərdə tədris göstəricilərinin yaxşılaşdırılmasında müəllimin peşə keyfiyyətlərinin rolu**" adlı üşüncü fəslin birinci paraqrafında ("**Azərbaycanda ixtisasartırma işinin təşkilinin innovativ metodların təkmilləşdirilməsinə təsiri**") müəllimlərin peşə keyfiyyətlərinin formalaşmasına ixtisasartırma sistemində tətbiq olunan innovativ metodların rolu təhlil olunur.

Mütəxəssis kadrların hazırlanması ali məktəblər və elmi müəssisələrin vacib məsələlərindən biridir. Bu kadrların səmərəli istifadə olunması birinci növbədə onların hazırlıq keyfiyyətindən asılıdır.

Hal-hazırda mütəxəssis kadrlar əxlaqi, ictimai-siyasi, həm də elmlilik və peşəkarlıq baxımından yüksək tələblərə cavab verməlidirlər: qurduğumuz demokratik cəmiyyətdə işləyib yaşaya biləcək hər bir şəxs öz bilik və bacarıqlarını ictimai fayda baxımından istifadə etməlidir ki, nəticədə özü də bundan faydalana bilsin.

Dərsləri ən yeni innovativ texnologiyalar üzrə aparan müəllimlərin xüsusi hazırlığı nəticəsində gözə çarpan fərq fəallıq növlərinə vaxtın bölgüsü ilə bağlıdır. Sinifdə işləyən müəllimlər daha az danışır, informasiyanı daha az verir, əyani vasitələrindən daha çox istifadə edir və daha nadir hallarda təhsil alanlar üçün məsələləri həll edirlər. Suallara cavab vermək əvəzinə onlar bunu

oxuyanlara tapşırırlar. Onlar daha çox soruşur və daha az izah edirlər.

Dissertasiya işinin üçüncü fəslin ikinci paraqrafı **“Tədrisdə fənlərarası inteqrasiya prosesinin və müəllimlərin peşə hazırlığının innovativ metodların tətbiqinə təsiri”** adlanır.

Bildiyimiz kimi, fənlərarası əlaqələr yeni düşüncə tərzinin yaradılmasında əhəmiyyətli rol oynayır və pərakəndə halında olan bilikləri sistem halına salmağa köməklik edir. Fənlərarası əlaqələr üzərində qurulan təlim müxtəlif perspektivləri görməyə və son məqsəd kimi müxtəlif fənlərin sintezinə nail olmağa imkan verir. Biliyin bir sahəsinin özünəməxsus məhdudiyyətləri götürən fənlərarası təlim təhsil alanlarda tənqidi düşüncəyə, yaradıcılığa, əməkdaşlığa və ünsiyyətə imkan yaradır. Nəticədə dialoq və biliklərin inteqrasiyası vasitəsilə fənlərarası təhsilin təşkilinin əsas istiqamətləri formalaşır.

Tədqiqat əsasında gəldiyimiz **nəticələr** aşağıdakılardır:

- Müəllim şəxsiyyətinin peşakarlıq və mənəvi-psixoloji keyfiyyətlərin formalaşması baxımından yetişməsi əsaslı dərəcədə onun öz təhsilindən asılıdır. Buna görə də orta və ali təhsil pillələrinin işində dönüş yaratmaq, yeni keyfiyyət göstəricilərinə nail olmaq lazımdır.
- Müasir məktəb kollektivinin fəaliyyətində yeni, İKT və elmin digər nailiyyətlərinə əsaslanan metodikalar sürətlə özünə yer tapır. Bunların tətbiqi şagirdlərin koqnitiv inkişafına, motivasiyasına, bütövlükdə şüur fəaliyyətinə əsaslı şəkildə təsir edir.
- Sinifdə innovativ texnologiyaların tətbiqi şagirdlərin həm də sərvət meyllərinə təsir göstərir. Eyni zamanda müəllim kollektivində əmək şəraitinin yaxşılaşdırılması onların işləmək həvəsinə, yəni motivasiyasına təsir göstərir. Əmək şəraiti dedikdə ilk növbədə iş yoldaşları ilə münasibətlərin xarakteri, müəllim əməyinin qiymətləndirilməsində obyektivlik, rəhbərlik ilə qarşılıqlı münasibətlər nəzərdə tutulur ki, bunların da, tədqiqatın göstərdiyi kimi, reallıqda göstəriciləri bir o qədər qənaətbəxş deyil. Nədənsə müəllimlər (xüsusilə müxtəlif fənn deyənlər) öz aralarında təcrübə mübadiləsi, asudə vaxtın birgə keçirilməsi, qarşılıqlı yardım kimi

imkanlardan az istifadə edir, fənnlərarası əlaqələrin metodik əhəmiyyəti də unudulur.

- ibtidai məktəb yaşlarında olan uşaqların pedaqoji təsir baxımından düşüncə psixologiyasının problemləri araşdırılıb. Müxtəlif növ yaddaş və əqli nəticəyə qabiliyyətinə dair tədqiqatın nəticələrinə görə, müəllimlərin ənənəvi metodlarından istifadə etməsi, eləcə də müəllim şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərindən istifadə edilməsi, uşaq şəxsiyyətinin müəyyən xüsusiyyətlərinin formalaşmasına mühüm təsir göstərir.

- Təlim-tərbiyə prosesində müəllim-şagird ünsiyyəti nə qədər geniş əsaslarda qurulsa və hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alsa, bir o qədər nəticə səmərəli olacaqdır.

- istər şəhərdən, istərsə də müxtəlif bölgələrdən olan şagird və müəllimlərin iş üslubu, formalaşmış ünsiyyət xarakteri, seçilən metodik yanaşmalar və fəndlər bir-birini tamamlayır. Sinifdə oxuyan şagirdlərin yaşı, yaşadıqları həyat mərhələsi, xasiyyəti, temperamenti, iradi-emosional xüsusiyyətləri müəllim tərəfindən nəzərə alınaraq istifadə etdiyi texnologiyaların tətbiqi zamanı istifadə olunur. Müəllimin də yaşı, təcrübəsi, sosial-psixoloji keyfiyyətləri və peşə keyfiyyətləri sinifdə şagirdlərin şagirdlərin psixi cəhətdən fərdi keyfiyyətlərinindən daha yüksək peşəkarlıqla istifadə olunması üçün zəmin yaradır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1.Влияние инновационных технологий на развитие когнитивных способностей учащихся в средних школах Азербайджана // Том 2 № 1 (2017): Науковий вісник ХДУ Серія Психологічні науки, s.81-3 (məqalə)

2. Проблемы иннновативных технологий обучения в педагогической психологии // «Исторические, социологические, политологические науки: история, современное состояние и перспективы исследований». 22–23 сентября 2017 года, Херсонский государственный университет. Международная конференция (tezis)

3. Нормативно-правовые и социально-педагогические основы применения инновативных технологий в азербайджанской школе // Теорія і практика Сучасний психології, s.105-106

4. Tədrisdə müəllimin psixoloji imkanları və onlardan istifadə yolları // (məqalə)

5. Azərbaycan məktəblərində innovativ texnologiyaların tətbiqinin psixoloji nəticələri // (məqalə)

6. Müasir məktəblərdə innovativ texnologiyaların tətbiq olunma xüsusiyyətləri // (məqalə)

7. Ibtidai məktəbdə yeni təlim texnologiyalarının tətbiqində psixoloji amilin rolu // (məqalə)

8. Развитие психики дошкольника под влиянием современных информационно-коммуникационных технологий // 2021, sentyabr (çapdadır)

Dissertasiyanın müdafiəsi 15 mart 2024-cü il tarixində $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, Zahid Xəlilov küç, 33. BDU, 2-ci tədris binası, 203-cü otaq.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.02.2024

Kağızın formatı: 60x84 $^{1}/_{16}$

Həcm: 39368

Tiraj: 100 nüsxə